AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 12/12

Bakı şəhəri 01 noyabr 2017-ci il

AMEA-nın müxbir üzvü Arif Abbasovun
80 illik yubileyi haqqında

2017-ci il dekabrın 22-də görkəmli arxeoloq alim, tarix üzrə elmlər doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Arif Abbasovun anadan olmasının 80 ili tamam olur.

Arif Abbasov 1956-1961-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almış, 1974-cü ildə namizədlik, 1995-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Görkəmli arxeoloq alim 1961-ci ildə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda əmək fəaliyyətinə başlamış, sonralar Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətində Elm Tarixi üzrə Elmi Şuranın elmi katibi vəzifəsində çalışmış, 1978-ci ildə yenidən Tarix İnstitutuna qayıtmış və burada əvvəlcə şöbə müdiri, elmi işlər üzrə direktor müavini, 1993-cü ildən isə Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru kimi fəaliyyətini davam etdirmişdir.

Onun elmi yaradıcılığı əsas etibarilə Azərbaycan etnoqrafiyasının bir sıra aktual problemləri, o cümlədən etnososioloji, etnomədəni, etnodemoqrafik və etnostatistik proseslərin araşdırılması ilə bağlıdır.

AMEA-nın müxbir üzvü Arif Abbasov Ümummilli lider Heydər Əliyevin siyasəti nəticəsində reallaşan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin keçdiyi ərazilərin arxeoloji abidələrinin tədqiqi ilə bağlı geniş fəaliyyət proqramı həyata keçirmişdir. O, dəfələrlə Fransa, Türkiyə, İtaliya, Rumıniya, Polşa, Almaniya, ABŞ və s. ölkələrdə keçirilən beynəlxalq konfrans və konqreslərdə Azərbaycan etnoqrafiya elmini layiqincə təmsil etmişdir.

AMEA-nın müxbir üzvü Arif Akim oğlu Abbasovun Azərbaycan arxeologiya elminin inkişafındakı xidmətlərini nəzərə alaraq və anadan olmasının 80 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, tarix üzrə elmlər doktoru Maisə Rəhimovaya tapşırılsın ki, AMEA-nın müxbir üzvü Arif Abbasovun 80 illik yubileyi ilə əlaqədar Arxeologiya və Etnoqrafiya İnstitutunda elmi sessiya keçirilsin.
2. AMEA-nın Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinə (Zülfüqar Fərzəliyev) tapşırılsın ki, kütləvi informasiya vasitələrində alimin həyat və yaradıcılığı geniş işıqlandırılsın.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev